

HAFİZ ƏLİMƏRDANLI

## BİR NƏĞMƏ SÖYLƏ Kİ...

Bir nəğmə söylə ki, könlümü alsın,
Sözləri od olub, qəlbimdə yansın.
Bir nəğmə söylə ki, yadıma salsın,
Sənli günlərimi səninlə ansın.

Bir nəğmə söylə ki, ürəkdə qalsın,
Səslənsin qəlbimdə qalan günlərim.
Keçən günlərimdən yenə yaşansın,
Yadıma düşəndə xatirələrim.

Bir nəğmə söylə ki, həsrət qalmasın,
Səndən ayrı düşsəm, de necə dözüm?
Kədərdən gözlərim yaşla dolmasın,
Nəğməndə əksini tapsın qoy sözüm.

Bir nəğmə söylə ki, dərd-qəm azalsın,
Gələn günlərimdən bir xəbər bilim.
Bu gündən sabaha bəlkə usansın,
Səninlə ötənə əlvida deyim.

## DƏYİŞMƏZ, HƏYATDA TƏKCƏ EŞQİMDİR

I

Dəyişir dünyamız, dəyişir hər şey,
Ömürdə günlər də bir-bir dəyişir.
Açılan çiçəklər təzələnir hey,
Qəlbimdə sevinclə, qəm növbələşir.

Dünən sevinc verən o baxçamızda,
Yarpaqlar saralmış, güllər də solmuş.
Quşlar civildəşən kollarımızda,
Çılpaq budaqlara sükunət qonmuş.

Qəribsər tək bulaq, ki görüşərdik,
Yalnız şırıltısı yaddaşda qalıb.
Görünmür cığırlar, biz gəzişərdik,
Xəzəldən onlar da bir örtük alıb.

Ötmüş neçə illər, dəyişib zaman,
O illər həsrəti, elə hey deyir,
İzləyir yenə də qəlbimi hicran,
Dəyişməz həyatda sənə eşqimdir.

II

Dözmərəm bir an da sənsizliyimə,
İtirsəm illəri heyfsilənmərəm,
Gəlirmi o illər heç xatirimə,
Sındırıb qəlbimi heç dillənmərəm.

Gəl məndən dolanma bir daha uzaq,
Yenidən dönək biz ötən günlərə,
Yenidən eşqimdən eyləsən soraq,
Əbədi qalacaq. deyim bir kərə.

## ÖMRƏ MEYAR EŞQİMİZDİR

Söylə, ömrə meyar nədir?
Qəlbim mənə sual verir,
Bahar ötür, xəzan gəlir,
Sevda dolu illər gedir.

Həyat illərlə ölçülür,
Hər ötən il ömür deyil.
Bəzən illər üzə gülür,
Bəzən kədər, qəm gətirir.

İlləri biz yola saldıq,
Ömrümüzdən qatar-qatar.
O illərdən sevgi aldıq,
Həyat deyir, bizə çatar.

Hər gedən il pay aparır,
Özü ilə sevgimizdən.
Köçən quşlar ilham alır,
Sanki bizim əhdimizdən.

Ümid vardır hər gələn il,
Sevgimiz də bir az artar.
Qəlbdə sevda qalarsa bil,
Ürəyimiz yenə yanar.

Günəşə bax səhər tezdən.
Üfüqlərdə qızartı var.
Ləzzət alsaq ondan hərdən,
Yeni nəğmələr yaranar.

Nəğmə olsa ürəklərdə,
Həyat demək davam edir.
İstər dağda, ya şəhərdə,
Ağ saçları çələng verir.

Qəbahətmi ağ saçlarım,
Eşqimizdən söz düşəndə.
Tək ürəkdir bilir yarım,
Eşqin meyarı əslində.

Ömür keçir zaman-zaman,
Artdıqca yaş il qısalır.
Nələr isə çıxsa yaddan,
Ötən günlər yada salır.
Ömrə meyar eşqimizdir,
Ömrə meyar eşqimizdir.

# KÖNLÜM HƏLƏ SƏNİNLƏDİR

*(məktub)*

Uzaq düşsən əgər məndən,
Könlüm hələ səninlədir.
Xatırla sən məni hərdən,
Könlüm hələ səninlədir.

Mən ki, sənsiz dolanmaram,
Sən gül olsan, mən baharam,
Sən qış olsan, mən də qaram,
Könlüm hələ səninlədir.

Gözləməyə səbrim vardır,
Dözmək üçün qəlbim vardır,
Adətlərim, dəbim vardır,
Könlüm hələ səninlədir.

Gəl yenə də qayıdaq biz,
Silinməsin heç izimiz,
Sözüm təmiz, qəlbim təmiz,
Könlüm hələ səninlədir.

Gözlər bizi öz bağımız,
Uzaqda uca dağımız,
Sevgiylə ötən çağımız,
Könlüm hələ səninlədir.

Baxma illər ötüb gedir,
Zaman bizi ahıl edir,
Qəlbdə arzu, dilək bitir,
Könlüm hələ səninlədir.
Hafiz səndən incik düşməz,
Bir gülüşün verər əvəz,
Sözümdə yox heç bir qərəz,
Könlüm hələ səninlədir.

Ömrün yolu yaş gətirər,
Qəlbi boğar hərdən qəhər,
Sevdamızdan doydum məgər?
Könlüm hələ səninlədir.

Əgər ömür versə aman,
Ey sevgilim mənə inan,
Xatırlasan səndən yanan,
Könlüm yenə səninlədir.

RÜBAİLƏR

# NƏCİB SAYILAR

Saf qızıl süxurda səpilmiş olar,
Oradan yumaqla təmiz alınar,
İnsanda azacıq nəciblik olsa,
O insan həyatda nəcib sayılar.

# BİR ZAMAN GƏLƏR

Ey oğul...
Demirəm ağsaqqal hörmətin gözlə,
Toxunma qəlbinə bişməmiş sözlə,
Qulaq as ürəyin nələr söyləyər,
Ağsaqqal olarsan, bir zaman gələr.

# KÖKLƏRİN İŞİDİR TORPAQDA ANCAQ

Palıd görənləri etmişdi heyran,
Möhtəşəm görkəmi var idi yaman,
Düşünən yox idi artan qol-budaq,
Köklərin işidir torpaqda ancaq

QƏZƏLLƏR

# ZAMANDIR

Ey gül, səntək canə yetsəm, söylərəm əcəb zamandır,
Bir çarə qıl əzabıma, gəl demə səbəb zamandır.

Hər aşiqin dövranı var, çərxi-fələk bəhanədir,
Dərdimizə varsa əlac, bu rəsmi tələb zamandır.

Neçə əfsanə eşitdim, neçə dastan oxudum mən,
Yenisi yazılsa bizdən, yaranar bir dəb zamandır.

Gördüyünü könül sevməz, könül sevən tam başqadır,
Ürək istər öyrənməyə, öyrədən məktəb zamandır.

Dildarımla vəslə yetsəm, soruş məndən nə istərəm?
Yoxdur başqa bir istəyim, ki yalnız, mətləb zamandır.

Sənli günlərimi verməz nə dövlət, nə mənsəb mənə,
Sənlə qalan günlərimə, istəyim yarəb zamandır.

Hafiz, ol dildarı sənə yetirən bu ruzigardır,
Şükür eylə öz bəxtinə, indi mürəkkəb zamandır.

## Dostlara bir kəlmə demərəm

Mən ki, bir kəlmə də dostuma səndən demərəm,
Bilmirəm ürəkdənmi, yoxsa qəsdən demərəm.

Yandırsan ey sənəm, qəlbimdə bir sönməz çıraq,
Gəlməsin pərvanə, düşər nifaq, mən demərəm.

Səndən soruşsa güllər, çiçəklər, bütün aləm,
Nə desən əfsanədir, ona, əhsən demərəm.

İstədim ayrı gəzəm, bəlkə dərdim azala,
Həsrətim artdı yaman, bilməm nədən demərəm.

Qəlbimdə coşarümman, nə zaman söylə burda,
Görünər, ya görünməz, bizim yelkən demərəm.

Dedim ki, fəraq düşsən pərişan olar qəlbin,
Orada qəlbim mənim  salmış məskən demərəm.

Hafiz, söylə ol şuxa, dastanlar əfsanədir,
Eyləsə bəlkə kömək, gələrik tək demərəm.

## Əzabkeş yenə candır

Dilbəra, varmı nəsə, həyatında candan şirin?
Bir can da çatıb mənə, həm mənimdir, həm də sənin.

İstərdim qurban verəm, canı xumar baxışına,
Dedim ki, can sənindir, bəs nədəndir indi qəmin?

Qəm düşər canə əgər, ötüb getsə vüsal anı,
Keçərsə o xoş zaman, qalar təkcə həsrət yəqin.

Yazılıb neçə dastan, eşq yolunda divanədən,
Mən ki, bir divanəyəm, niyə dinmir sənin qəlbin?

Dəyişib indi zaman, eşqdən cəfa dəbdə deyil,
Soruşdum dəbdə nədir, dedin yalnız səbr, təmkin.

Səbr, təmkin dözüm demək, ürək isə sənsiz dözmür,
Əzabkeş yenə candır, gecə-gündüz həzin-həzin.

Hafiza, dərd eləmə, o can sənə qismətdirsə,
Olacaq bir gün sənin, ümid elə, olma bədbin.

## Yəqin bizə yar gələcək

Baxçamızda güllər açıb, yəqin bizə yar gələcək,
Ürəyimdən qəm gedəcək, könlümə bahar gələcək.

Vətənimin torpağında nazlı gözəllər yetişir,
Görəndə də hər birini qəlbimə vüqar gələcək.

Təbiətin öz işidir, neçə dilbər yaratsa da,
Qəlbim mənim hey söyləyir, tələsmə nigar gələcək.

Gəlsə dildar həsrət gedər, şükr edərəm neçə dəfə,
Ki, eşqini bəyan edib, gülzarım aşkar gələcək.

Səni bir gün görməyəndə, mənə divanə deyərlər,
Bilən yoxdur, xəyalımda, gözləri xumar gələcək.

Nə deyirlər, qoy desinlər, eşqdən yoxdur xəbərləri,
Eşq yolunu kəşf edəndə, qəlbə ixtiyar gələcək.

Bəsdir daha fikir etdin verilmişdir artıq fərman,
Söyləyirlər gözləyən var, Hafizdən qərar gələcək.

## Könlüm dolu əzabladır

Könlüm dolu əzabladır, cövrün qəsdən qurtarmazmı?
Cəfa ilə keçsə ömür, bu eşq məndən qurtarmazmı?

Hər aşiqin öz dövrü var, sən də bunu bilirsən ki,
Səntək canə yetişmişəm, cəfa hərdən qurtarmazmı?

Hicran ilə keçən günlər, yaxın edər qəlbimizi,
Görüş üçün qəlb sızlayar, giley səndən qurtarmazmı?

Xəyal yenə təskin verir, çatacağam nə vaxt isə,
Dostlar, deyin gecə-gündüz, dildə əhsən qurtarmazmı?

Bəs edər ki, bircə kəlmən, bu sevdadan qəlbim mənim,
Aşıb-daşsa sevinc ilə, sevinc erkən qurtarmazmı?

Yetər axır, eşqimizdən hər iki aləm danışır,
Bir dəfəlik kifayətdir, yandım desən qurtarmazmı?

Ey Hafizə ümid verib, qəlbi nihan gəzən gözəl,
Qəlbim mənim şamtək yandı, yanıb tezdən qurtarmazmı?

## Bir "Segah" dinləsək

Bir "Segah" dinləsək, ruhumuz göylərdə gəzər,
"Cahargah" səslənsə, qəlbimiz şövqlə dincələr.

Xalqımın əzəldən muğamat sərvəti olmuş,
İlahi göndərmiş, taixlər verirlər xəbər.

Muğamda Nizami, Fizuli hikməti vardır,
Onlardan çatmışdır əmanət bizə qəzəllər.

Hər birin "Rast" ilə dinləyən nəfəsin dərməz,
"Dilkəş"i eşitsən, könlündən dağılar kədər.

Ürəkdən səslənər qəzəli Seyid Əzimin,
Vahidin sözləri "Dəşti"yə yeni rəng verər.

"Zabul"da ürəyin eyləyər ahu-zar, fəqan,
"Bayatı Qacar"la həvəslə açarsan səhər.

Muğamlar bir məlhəm, ürəyə dəyərli dərman,
Dinləyən hər dəfə, yenidən dinləmək istər.

Ey Hafiz, muğamı sevməyən insan olarsa,
Əfsuslar, deyərsən, bu insan, yaşamış hədər.